Bakı  Biznes Universiteti 05-06 may 2016-cı il tarixində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü illiyinə həsr olunmuş **“Dünya iqtisadiyyatı və Azərbaycanda turizmin inkişaf istiqamətləri”** mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirəcəkdir.

Beynəlxalq konfransda aşağıdakı mövzular ətrafında müzakirələr keçiriləcəkdir:

- ***Heydər Əliyev və iqtisadi inkişaf strategiyası***
- ***Azərbaycanda turizm biznesinin inkişafının müasir problemləri***
- ***Turizmin inkişafında ekologiya və iqtisadiyyatın rolu***
- ***Turizm xidmətində uçot və auditin inkişafı istiqamətləri***
- ***Maliyyə və turizm***
- ***Turizmin inkişafında xarici dilin rolu***
- ***Turizmin inkişafında informasiya texnologiyaları və ekonometrik modellər***
- ***Humanitar elmlər və turizm***

**Konfransın işçi dilləri:** azərbaycan, türk, ingilis və rus

Məruzə və çıxışların göndərilməsinin son tarixi: 15.04.2016

**Məruzələrin yazılma və təqdim edilmə qaydaları:**

1. Məruzənin adı, müəllifin adı və soyadı, elmi dərəcəsi (varsa), oxuduğu və ya işlədiyi yer göstərilməlidir.

2. Məruzələrin həcmi 5-7 səhifədən (A4) çox olmamalı, tezislər 3 səhifə və 14-lük ölçüdə Times New Roman şrifti ilə yazılmalıdır. Səhifələr soldan 30 mm, yuxarıdan 20 mm, aşağıdan 20 mm, sağdan 20 mm boş buraxılmalıdır. Məruzələr elektron versiyada və iki nüsxə çap olunmuş şəkildə təqdim edilməlidir.

3. Azərbaycan və türk dillərində yazılan məruzələrin ingilis və rus, ingilis dilində yazılan məruzələrin Azərbaycan və rus, rus dilində yazılan məruzələrin isə Azərbaycan və ingilis dillərində xülasələri də yazı ilə birlikdə göndərilməlidir.  Xülasədə məruzənin mövzusu və məqsədi, istifadə edilən metod və nəticə yer almalıdır.

4. Qəbul edilməyən məruzələr geri qaytarılmır.

Əlavə məlumat üçün aşağıdakı telefonlara müraciət edə bilərsiniz:

**Telefon:** (+99412)431-91-18 (daxili 101, 103, 112)
**Fax:** (+99412)430-07-80
**E:mail:** info@bbu.edu.az
**Ünvan:** Bakı şəhəri, Az1011, H.Zərdabi küç.88A